# 1. DÜNYA DAŞQINI

Mərdimazar adamlar olur da həmmişə, görürsən cəmiyyətin içində birin firitdiyif güdaza verir. Bular firitdədi cavan-cavan uşaxları:

– Ə, Nuhun başı xarab oluf, götürün onu daşdıyın, salın evinə.

Götdü hərə bir daş, Nuhu qava-qava apardılar saldılar darvazasınnan içəri, qayıtdılar. Bir gün belə, beş gün belə, Nuh çölə çıxası olmadı. Okqədərənə buna əzab verdilər ki, axırda dözmədi. Bir dəfə də başın belə çıxarırdı darvazadan, görüm uşax-muşax yoxdu ki. Elə belə çıxartmax isdiyəndə daşın biri düz burasınnan tutdu, başı yarıldı. Əlin belə tutdu, gördü qan gözünün üsdünü örtür. Belə sildi, başını qaldırdı dedi:

– Başına dönüm, mənə bunnan ötrü peyğəmbərrih verirdin? Görürsən ki, bular yola gəlmir da, mən neyniyim?

Dedi:

– Get bir gəmi qayır. Az vaxda olara nə olajağın göstərəjəm.

Bu başdadı ağaşdan gətdi. Öz inandığı adamlar vardı, hansı ki, bunun dediklərin qəbul eliyirdi, buları çağırdı yığdı. Meşədən ağaş gətirdi, başdadı gəmini hazırramağa. Genə həmənki mərdimazarrar gəldilər gəminin içini mundarradılar. Bir səhər ertə gələndə gördü gəmi çox pis vəziyyətdədi. Yenə başın qaldırdı hak dərgahına:

– Mənim Allahım, hər şey saa agahdı.

Dedi:

– Narahat olma, sən işində ol.

Bu, işin görürdü. Səhər ertə hay düşdü ki, şəhərdə cüzam xəstəliyi törənib. İnsanın bədənində geyişmə, pis bir vəziyyət yaranıb, çox pis xəstəlihdi. Bunun biri o qədərənə geyişdi ki, getdi başdadı bu gəmiyə belə-belə sürtünməyə. Birdən ayağı sürüşdü, tapbıltıynan mundarradıxları şeyin içinə düşdü. Düşdü, çabaladı, çıxdı. Elə çölə çıxanda gördü ə, bir dənə yarası, bir dənə xorası qalmıyıf. Hay düşdü, bütün şəhər elədikləri nəcisi dərman kimi istifadə etdi. Elə sildilər, süpürdülər, elə təmizdədilər ki.

Nuh dedi:

– Başa düşdünüz, düşmədiniz?

Genə başa düşmüyənnər oldu.

Bir qoja qarı da çörəh bişirirdi. Nuh elan verdi ki, bütün cannılardan hərəsinnən bir cüt gəmiyə minsin. Kim mana inanırsa, gəlsin gəmiyə, yoxsa dünyanın üzün su alajax, məhv olajax. Rəvayətə görə, qarı da çörəh bişirirdi. Onun elçisinə dedi ki, başına dönüm, peyğəmbərə denən məni də gözdəsin, çörəyi qurtaran kimi gəlirəm.

Su gəldi, gəmi qalxdı, qarı qaldımı? Rəvayətə görə oğluynan aylısi də boğuldu öldü. Orda Nuh peyğəmbər əlin qaldırdı hak dərgahına ki, ilahi, axı bu mənim özümkü idi. Dedi:

– Yox, sənnən törəsə də, sənnən döylü. Ona görə də onun hakkında xayiş eləmə, olar qərq olmalıdı.

Ona görə oğluynan arvadı boğuldu məhv oldu. Deyilənə görə, neçə min illər keşdi, Nuhun gəmisi gəldi Ağrı dağında dayandı. Hardan ki, başdamışdı, elə həmən yerdə. O dəkqə də peyğəmbər gördü kü, qarı əl-ətəyin yığışdırıf ayannan bəri gəlir. Özü də məhətdəl qaldı.

– Ya peyğəmbər, getmirih?

Dedi:

– Gedif gəlmişih.

Dedi:

– Nətəri gedif gəlmişih?

Dedi:

– Sənin xəbərin olmadı?

Dedi:

– Vallah, mən çörəh bişirirdim, heş nədən xəbərim olmadı.

Deyir:

– Heş nə hiss eləmədin?

Dedi:

– Təzəh yığırdım, gedirdim təzəyi qaldıranda görürdüm altı yaşdı. Deyirdim quru yerdə nətər olur təzəyin altı yaş olur.

Dedi:

– Fikir ver, oları ağlına vur, o qüdrət sahibinin nəyə qadir olduğunu başa düş. Allah-tala səni min il o sajın böyründə eyni vəziyyətdə saxlıyıf və o çağlıyan sular, sellər, tufanlar sənin heş həndəvərinə yaxın gəlmiyif.

*Mətni söylədi: Qasımov Musa İbrahim oğlu, Bərdə rayonunun Seyid Yusifli kəndi, 1940-cı il təvəllüdlü, ali təhsilli zootexnik.*

## 2. NUHUN TUFANI

Allah-taladan Nuh peyğənbərə sada gəlir ki, ya Nuh, saa bir bəla gələjək, sən elə bir şey elə ki, kafırrar saa inansın. Hə, bı da gətirir bir gəmi düzəltdirir, nə bilim, uzunnuğu nə qədər. Deyir ki, saa kim iman gətirir, olları yığarsan gəmiyə, elə bil ki, o bəla sizə toxunmıya. İndi bı da gətirir bı gəmini düzəltdirir. Bala, bı kafırrar, bı Allah nəhlət eləmişdər gəlir bı gəmini, qırağ olsun, əəx yeri qayırır. Nuh peyğənbər gedir Allah-talaynan kəlmələşir ki, saa qurban olum, başıma bir iş gəlib. Deyir ki, onu özdərinə təmizdətdirəjəm, sən tələsmə. İndi, bala, Allah-taladan bılların canına bir geyişmə darışır, mına nə cür maalicə eliyillər, xeyri olmur. İndi biri suruçur, yıxılır, qırağ olsun üzümüzdən, qılçası bılaşır zibilə. Səhərdən gedir görür ki, ora yaxşı olub. Gətirir mınnan hər yerinə sürtür, yaxşı olur. O deyir ki, sən neynədin, yaxşı oldun, bı deyir, nətər elədin, yaxşı oldun? Deyir ki, bəs belə-belə. İndi, qırağ olsun, gətirif bıllar hamısını canına yaxır. Çatmıyan da qaşıyır, yuyur, soyur. Ta mını elə təmizdiyillər ki, nə cür.

Hə, mının da üç oğlu varıymış. Mının biri ona iman gətirmirmiş. Allah-taladan mına sada gəlir ki, tufan qopajax, sən isdədiyin adamları yığassan gəmiyə, birdən çıxassan. Bir qəri – qoja arvat – mının da inəyi varmış, bı da gündə bir qab süt gətirirmiş. Deyərmiş, başaa dönüm, sən Allah, gedəndə məni qoyuf getmə. Hə, nəysə, gedəndə hamını yığıf, bı qarı yadınnan çıxıf. İndi hamısı yığılıllar gəmiyə. Bir qadın təndirdə çörək bişirirmiş. Bı təndirdən su pakqıldıyır çıxır. Allah-tala deyir:

– Ya yer, suyu bırax, ya göy, suyu bırax.

Altı ay bı su gəlir dolur, bı şəhəri batırır. Bı qarı nənənin Allah-tala inəyini də, özünü də salamat saxlıyır.

Hə, [Nuh] indi gedir hər heyvannan bir dişi, bir erkək, insannardan da kim mına iman gətirir, hamısını yığır, götürür gedir. Yolun yarısında – ortasında görür ki, su alır oğlunun birini. Qəmlənir. Allah-tala deyir ki, qəmlənmə, o, kafırrardandı. O sənin oğlun olsa da, heç ona ürəyin yanmasın. Qalıllar bırda, dağın başında. Ağrı dağı deyillər, Naxçıvan tərəfdə, həmən o dağın başına çıxır, bırda altı ay qalıllar. Özü də heyvannarın hamısına tafşırıllar ki, bir-biriza yaxın getməyin da, balalıyar artar, gəmi tutmaz.

Hə, indi qırağ olsun, görüllər ki, it bir-birinə şey olub. Pişik gedir peyğənbərə deyir ki, – indi onçun deyillər ki, itinən pişik ləjdi*, – itnən it görüşür. Bı da deyir ki, olmaz həylə şey, tafşırmışam. İndi onçün deyillər ki, it həylə birrəşikli qalır. Pişik də Allah-talaya üz tutur ki, bı nətər olur, bıllar Allahın buyruğunnan çıxsın, mını peyğənbər götürsün. Onçun itnən pişik ləjdi.

İndi bı qara qarqanı göndərir ki, gedin görün su azalıfsa, qayıdax gedək yerimizə. Qara qarqa gəlir, baş qarışır leşə-zada, getmir. Bı peyğənbər mına deyir ki, səni elə həməşə şərə ürcah eliyəjəm, onçun qara qarqa həmişə şər xəbər verir. İndi göyərçinnən kəhliyi göndərir. Rəhmətdih anam deyirdi ki, Allah ölənnəri rəhmətdih eləsin, bala, o kəhliyin, göyərçinin əəği** onçun qıfqırmızıdı. O suyun zərbinnən onun əyəxləri həylə qıfqırmızıdı. Hə, indi bıllar gəlir deyir ki, peyğənbər, su azalıfdı. Su azalır, altı aydan sora bılar qayıdır gəlir yerinə.

İndi Allah-tala hər şeyə qadirdi. Bı qarı nənə genə bir cam süd götürüb gəlir ki, başaa dönüm, birdən məni qoyuf gedərsən. Sən Allah, amanın günüdü, məni qoyuf getmə. Deyir ki, qarı nənə,

---

* Ləj – yola getməyən, arası olmayan

** Əəği – ayağı

vallah, sən heş yadıma düşmədin. Gör Allahın necə xoşbəxt bəndəsisən ki, səni bu tufannan Allah saxlıyıf. Heş bir şeydən başa düşmürdün?

Deyir:

– Yox, vallah. İnəh birdən üsdü yaş gəlirdi, heş başa düşmürdüm.

Deyir:

– Hə, qarı nənə, arxayın ol ee, hər şey savıluf gedif. Heylə Allah-tala səni saxlıyıf bırda. Gör necə xoşbəxt bəndəsən ki, səni saxlıyıf bırda.

Hə, onnan sora qayıdıf gedillər. Nuhun da tıfanı həylə olur.

*Mətni söylədi: Hüseynova Zərifə Göyüş qızı, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, təvəllüdü 1937.*

## 3. NUH

Rəvayətin dediyinə görə, Quranın dediyinə görə, Allah gördü ki, insannar azışıfdı. Danışannarın sözünü danışıram. Özümnən nə qondarmışam, nə də üsdünə qoyuram. Məə də diiflər, yadımda qalanı diirəm da səə. Allah-tala Nuh peyğəmbərə didi ki, gəmi düzəltməh lazımdı. Gəmi düzəltdi iki mərtəbə. Alt mərtəbəsinə heyvan aləmi götməlisən, üsd mərtəbəsinə insan götməlisən. O adamın adı yadımdan çıxıfdı. Orda bir şəxsə diir ki, getginən meşədən ağaş gətir, mən gəmi düzəldəjəm. Allah tərəfinnən məə nida gəlif, mən gəmi düzəldəjəm. Bu da didi ki, mən gedif gətirərəm.

Bu gedif meşədən ağacı qıranda şeytan nəhlətdəmə buna rast olur. Diir:

– Ə, nağarırsan?

Diir:

– Ağac qırıram. Nuh isdiyir, gəmi düzəldəjəhdi. Yer üzünü su alajax, insannardan ora götürüf xilas eləməhdən ötrü.

Diir:

– Ə, Nuh səni aldadır. Səə yiməh vermijəh, eləmijəh, tulla getsin.

Bu kəndiri açır, odunu tulluyur. Ürəyinə gəlir, qoltuğumda da olsa, bunnan aparım bir az. Bu başdıyır bu ağacdan qoltuğuna yığır, götürür gəlir. Çağırır Nuhu:

– A Nuh kişi, bir az ağac gətmişəm, gəl bax.

Diir ki, darvazanın böyrünə tökginən. Bu şəxs dilimin ujundadı ey adı, yadımdan çıxıfdı. Bu şəxs ağajdarı yığdıxca görür ə, bu xərək həmən xərək oldu, meşədə topaladığı xərək. Bu ağajdarda dəyişihlih yoxdu axı. Bu qoltuğunda gətdi bunu. Axı bu ağajdar hardan gəldi? Didi: “Ya rəbbi, bu nə hadisədi?» Nuha didi ki, a kişi, bu bəsdimi? Didi:

– Sən qırdığın ağajdar hamısı burdadı. Didi:

– Məə bir kişi didi ki, səə Nuh yiməh vermijəhdi, mən də onunçün bir qoltuğumda gətirdim.

Diir:

– Allah tərəfinnən məlayikələr də sənə köməh oluf, sənin xəbərin olmuyuf bu işdən.

Bu indi usda axtarır bu işi həll eləməkdən ötrü. Gedir usdanı axtarır. Bir şəxsə diir ki, məə gəmi qayıracan, özü də az müddətə. Məsəlçün, Bunnan şərtdəşir ki, qızımı səə verəjəm (Nuhun da bir qızı olur), mənim gəmimi qayır. Gəmini qayıranlar eşitdilər ki, Nuh gəmi qayırtdırır, dünyanı su alajax, yer üzünü. Mən də getdim ki, Nuh, mən də gəmiçiyəm, səə köməh eliyim, amma şərtimiz var, qızıı məə vercəsən. Allah tərəfinnən vəhy gəldi ki, dinən ki, razılığını versin. Didi: “Verərəm”. Başdadılar bular gəmini qayırdılar. Üçüncü bir adam eşitdi ki, Nuh belə bir gəmi qayırır, özü də qızını vercəh. Bunun qızı o qədər gözəl olufdu, rəvayətin deməyinə görə, görməmişəm, eləməmişəm. Hə. Buna da söz verdi.

Gəmini qayırır, hazırrıyır, qoşur. Hə, axşam olur. Gəmini qutarır. Bu adam gedəndə bu birinci adam, ikinci, üçüncü, hamısı topadı da burda. Didi:

– Nuh, biz gedirih. Səhər gəlif zənənimizin nikahını kəscəsən, vercəsən, aparceyih.

Başdıyır bu kirişkələnir. Allah tərəfinnən vəhy gəlir ki, üçünə də söz ver. Diir:

– Gəlin səhər adamınızı aparın.

Üçünə də söz ver diyənnən sora Həzrət Cəbrayıl gəlir Nuh peyğəmbərin yanına. Diir:

– Nuh, Allah-tala diir ki, qızı olan otağa qancıx eşşəyi də salsın, qancıx iti də salsın. Uların üçünü də içəri salsın, gejə orda qalsın. Səhər duranda ayağa, adamlar gələndə hərəsinə birinin nikahını kəssin, versin.

Diif:
– Baş üstə.
Gedif bu forma eliyir. Səhər ustalar gəlirlər. Diirlər ki, Nuh, nikahı kəs, qızını oğlumuza aparırıx. Diir:
– Yaxşı.
Açır qapını, görür ki, üş dənə qız var, biri-birinnən seçilmir. Bilmir hansı, hansıdı. Bunları aparır, nikahını kəsir, hərəsinə birini verir, götürüf gedirlər. Bunlar gedənnən sora Nuh peyğəmbər fikirrəşir ki, ə, mən nətəər tanıyım, mənim qızım bunun hasıdı, hası döylü. Bu məsələ gəlir Nuhun qəlbinə. Nuh peyğəmbər diir ki, mən bulara qonax gedim. Qonax gedəndə burda hal-əhval tutajam bulardan ki, ay kürəkən, ay qoum, bu gəlin nətərdi, nə cürdü, xasiyyəti nətərdi, bunun sənnən nətər münasibəti var. Hə. Gedir birinin öyünə. Gedəndə diir ki, mənim qızımnan yarımısanmı, sənin işi görürmü, səə hörmət eliyirmi, sənin qaydaa qalırmı? Diir:
– Yaxşıdı, işdəri də yaxşıdı, hər şeyi yaxşıdı, amma cəh-cəh cəngildiyir. Sənin sağlığın, didiyimizə də peşman olurux, əlimizi- ayağımızı tutur.
Diir:
– Hə, bu itdən əmələ gəlmədi.
Bir-iki gün keçənnən sora qayıdıf gəlir öyünə. Təzdən diir ki, qoy ikincinin yanına gedim. Gedim görüm nətərdi. Gedir ora. Yeməh yeyənnən sora diir ki, nağarır, nətərdi sənin bu gəlinin? Diir:
– Gəlnim yaxşı gəlindi, Allah sənnən razı olsun. Amma eşşəh kimi şeydi, diir. Bizdəməsən duruf bir işin dalınnan getmir.
Diir:
– Hə, bu deməh eşşəhdən əmələ gələndi.
Bu səfər getdi üçüncü qızın yanına. Axşam oldu, yeməh-zad yidilər. Yoldaşına didi ki, dur bandakı qarpızı gətirginən. Yoldaşı da həmli olufdu rəvayətin diməyinə görə. Çıxıf u bannan qarpızı gətirir, qoyur sufraan üsdünə, pıçağı da gətirir. Diir:
– Yox, bu qarpız döylü, u biri qarpızdı. Çıx u birisini gətir.
Rəvayətin diməyinə görə, Quranın diməyinə görə, qırx dəfə bu bana çıxır, düşür. Qırxıncıda diir ki, hə, elə bu qarpızdı. Gət, elə düz gətmisən. Başdıyır bunu kəsillər, yiyillər. Unnan sora hal-əhval tutur qızınnan, gəlninnən ki, nətərdi bunnan sənin həyatın. Diir:
– Qızın yaxşıdı, Allah unnan razı olsun. Bu qarpız, diir, bir dənə oluf banda. Özü də bu boyludu. Nərdiyannan qırx dəfə mən bunu çıxartdım, düşürtdüm, gənə dimədi u zəkqutum orda bir dənədi da, niyə iki dənə diirsən məə. Bir dənədi da, unu gətmişəm da. Allah sənnən razı olsun.
Nuh unnan sora arxeyin oldu ki, diməli, yüz faiz ki, öz qızım budu, filankəsdəyi it nəslidi, filankəsdəyi eşşəhdən əmələ gəlmədi. Bu formada başdadılar bular burda devran sürməyə.
Bu devrannan sora başdadı yer üzünü su aldı. Bir qarı nənə olufdu vaxtiylə. Bu qarı nənə diifdi:
– A Nuh, eşitdim yer üzünü su alajaxdı. U qayırdığın gəmiyə məni də göt, mən burda qalmıyım, nolar. Səə hər gün gətirif bir kasa süd verirəm.
Diir ki, qarı nənə, baş üstə. Nuh bu çatışmanın içində özünü elə unudur ki, bu qarı heç yadına düşmür. Yer üzünü başdıyır su almağa. Nuhun Sam adında oğlu oluf. Oğluna diifdi:
– Ay oğul, yer üzünü su alajaxdı, sən də boğuluf öləjəhsən.
Diir:
– Yox, çıxmıram mən. Mən çıxmıram.
Nuha Allah-taladan vəhy gəlir ki, özünə məxsus, özünə tabe olan, mənim dinimi qəbul eliyən adamlardan götürsün gələcəh nəsil artmaxdan ötəri. Nuh peyğəmbər kəntdə tanıdığı adamlara diir:
– Ə, yer üzünü su alajaxdı, sən müsürmannıx eliyirsən, Allahın şəriyətini, Allahın varrığını sübut eliyirsən, una şək gətirmirsən. Min gəmiyə, qalxax göyə. Su enəndə gənə həyat qurax, nəsil artsın, üzülməsin. Adamlar hamısı qalacax suyun altında.
Diir ki, yaxşı. Deməli, bular gəmidə olan vaxtı qəlblərinnən keçir ki, biz yerə düşəndə xaşpərəst donuna girərih, xaşpərəstdərin yolunnan gedərih. Biz bunu aldatmışıx. İntaası düşənnən sora hərəmiz bir dinə qullux eliyərih. Allahtalaya ayandı bu şeylər. Allah-tala Əzrayılı göndərir ki, həştad nəfər olur, get həştadının da canını al. Cəbrayıla da diif ki, get Nuha dinən uların hamısını tullasın suya. Cəmdəyini da saxlamasın ki, yerə enəndə basdırajam. Olar asıdılar

məə, oları buraxsın dənizə. Buları tulluyur dənizə. Nuhun rəvayətinə, diməyinə görə üç oğlu olur.

Başdıyır bular yavaş-yavaş yerə enməyə. Quşdardan, heyvannardan bir erkəh, bir dişi götürür. Gəminin birinci mərtəbəsinə uların hamısını yığmışdı. Amma Quranın diməyinə görə, danışılana görə, quzğunun fərəsini tapıfdı, xoruzunu tapmıyıf. Nə qədər axtarıf, tapmıyıf. Bir günü sular qalxanda bir quzğun görüf ki, elə qar yağır, elə qar yağır... Qar yağdıxca bu quş görür ki, qar çatır, qalxır ağacın başına. Ha yavaş-yavaş ağacın başına. Görür ki, ə, ağacın təpəsinə yaxınnaşıf qar, hərrəməsinə yaxınnaşıfdı. Nuh əleyhsalam görüf ki, ağacın başında bir heyvanat var. Gəmini verifdi unun yanına. Gedif görüfdü ki, bu quzğundu. U quzğunun da üş yüz il yaşıyanı, diir, yumurtduyur, nəsil verir. Hə, başdıyır bu quşu götürür ki, a quş, mən səni axtarırdım, sənin fərəni tapmışdım, amma səni tapmırdım. Elə yaxşı oldu sən rast düşdün, gəl bura. Bu quş uçur gəlir, minir gəmiyə.

Nuhun oğlu da buna ası düşür. Diir:

– A kişi, u hündür ağacın təpəsinə çıxajam. Diir:

– A bala, hündür ağacın da başını su alajax.

Nuh əleyhsalamın oğlu Sam atasına tabe olmur. Suda boğulur. Öləndə ata ürəyidi da, başdıyır bu çağırmağa:

– Ay ata, məni də götür da.

Bu, gəmini saxlıyanda Allah tərəfinnən Həzrət Cəbrayıl gəlir ki, u ölməlidi. Səni eşitmədi, səə tabe olmadı, u getdi. U dünyasını dəyişcəh. Məə də ası düşdü, səə də. Onnan sora, qardaş, bu gəmi yavaş-yavaş yer üzünə enir. Yer üzünə enənnən sora başdıyır bu heyvanatdar yayılıllar. Yayılma gedir, başdıyır nəsil artmağa.

Bu qarı nənə sabannarı durur süd gətməyə. Diir ki, ay aman, gejikmişəm mən. Durur görür ki, qapıda inək durufdu. İnəyi başdıyır sağır, südü götürüf gedir. Diir ki, Nuh. Diir:

– Hə.

Diir ki, yaxınnaşmıyıfdı u iş? Diir:

– Qarı nənə, nətəər iş?

Diir:

– Da u hak-hesab, sən diirdin yer üzünü su alajax.

– Qarı nənə, – didi, – su aldı da, qutardı da. Bunnan bir şey başa düşüf annamadın?

Didi:

– Bu sabannarı inəyim gələndə dizdən aşağı palçıx idi.

Didi:

– U iş oldu qutardı.

Diməli, bizi yaradan Allah u qarı nənəni yuxuya verdi. Rəvayətin deməyinə görə, qırx gün Nuh suyun üzündə qalıf, u qırx gün qarı nənə nə ajmıyıf, nə sussamıyıf, nə oyanmıyıf. Orda yuxuya gedif öz öyündə. Allah onu öz öyündə saxlıyıf inəyinnən barabar. Deməli, gənə unu sağıf südünü gətirif. Nuh diir:

– Qarı nənə, u iş qutardı. Su souşdu getdi. Allah səə şükür, bizdən uzaxlaşdı.

Unnan sora başdıyır yavaş-yavaş nəsil artmağa, qardaş.

*Mətni söylədi: Nağıyeva Afiqə Alı qızı, Ağdaş rayonu, Şəmsabad kəndi, təvəllüdü 1933*